**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**SAMİRƏ ƏLİ QIZI EYVAZOVA**

# AVROPA İTTİFAQININ YENİ QONŞULUQ SİYASƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI: İQTİSADİ ƏMƏKDAŞLIĞIN BEYNƏLXALQ HÜQUQİ PROBLEMLƏRİ

**İxtisas: 5603.01 – Beynəlxalq hüquq; insan hüquqları**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2013**

**Dissertasiya işi Bakı Dövlət Universiteti «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasında yerinə yetirilmiş, müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir.**

**Elmi rəhbər:** **hüquq üzrə elmlər doktoru**
**Ə.İ.SADIQOV**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru,**
**professor L.H.HÜSEYNOV**

**hüquq üzrə fəlsəfə doktoru**
**İ.Z.EYVAZOV**

**Aparıcı təşkilat:** **AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq Institutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsi**

**Dissertasiya işinin müdafiəsi 31 oktyabr 2013-ci il tarixdə saat 10:00-da Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.**

**Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.**

**Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.**

**Avtoreferat «27» «sentyabr» 2013-cü il tarixdə göndərilmişdir.**

**FD. 02.013 Dissertasiya Şurasının**

**elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q. MƏMMƏDOV**

## İŞIN ÜMUMI XARAKTERISTIKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir Avropanın inteqrasiya sisteminə müraciət edərkən ilk növbədə belə bir fakta diqqət yetirilməlidir ki, Avropada iqtisadi inkişaf üzrə ardıcıl, çoxtərəfli və kollektiv əməkdaşlığa əsaslanan və sabitliyin təmin olunmasında ən optimal çıxış yolu kimi çoxistiqamətli təhlükəsizlik sistemi fəaliyyət göstərir. Avropa məkanında müşahidə olunan inkişaf və inteqrasiya institusional təhlükəsizlik, iqtisadi inkişaf modelinə yeni məzmun verməkdədir. Beynəlxalq hüquqi tənzimetmə üçün xarakterik olan koordinasiya prosesi Avropanın timsalında yeni istiqamətlər əldə edir. Belə qənaətə gəlmək olar ki, Avropa qitəsi dünyanın ən təminatlı sosial-iqtisadi sistemini formalaşdırmaqdadır. Avropa xalqları özünün əmin-amanlığı üçün alternativliyə söykənən təhlükəsizlik sisteminə can atmaqdadır. Bu sistem insan hüquq və azadlıqlarının inkişaf dəyərlərinə əsaslanan təhlükəsizliyi formalaşdırmışdır. Avropalıların kollektiv təminat mexanizmlərindən biri kimi meydana gələn və əsası 50-ci illərdə qoyulan Avropa İttifaqı (Aİ) təsis müqavilələrinə nəzər yetirərkən məlum olur ki, Avropalılar inteqrasiya prosesində meydana gələ biləcək əsas təhdidləri öncədən müəyyən etməyə çalışmışlar. Aİ iqtisadi təhlükəsizlik modeli kimi təzahür etsə də sonradan hərbi-siyasi, sosial-ekoloji, hüquqi-humanitar təhlükəsizlik funksiyaları əldə edib. Insan təhlükəsizliyi, demokratik islahatlar üzrə fəaliyyəti yeni məzmun kəsb etməyə başlayıb. Bütün bunlar onu göstərir ki, Aİ institutları müxtəlif istiqamətlərdə təzahür edən təhdidləri qarşılamaq üçün istənilən regional, eyni zamanda universal təhlükəsizlik modelindən daha ciddi təminatı nəzərdə tutur. Aİ-nin əsas fərqli xüsusiyyəti onun üzv-dövlətlərin suveren bərabərliyinə hörmət dəyərinə bağlılığıdır.

Aİ özünün spesifik iqtisadi inteqrasiya sistemi ilə Aralıq dənizi hövzəsi, postsovet ölkələri, o cümlədən Azərbaycan Respublikası (AR) üçün mühüm əhəmiyyətə malikdir. Regionun digər dövlətləri kimi AR də Aİ çərçivəsində bərqərar olmuş iqtisadi təhlükəsizliyə özünün təhlükəsizlik şərti kimi baxır. Regional böhran və münaqişələrin həll edilmədiyi bir zamanda, mürəkkəb və həssas regionda yerləşən AR-in davamlı və normal inkişafı üçün onun ətrafında təhlükəsizlik mühitinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Avropanın iqtisadi təhlükəsizlik sisteminin ayrılmaz hissəsi olan AR geniş iqtisadi imkanlara malikdir. AR-in və tərəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına töhvə verən beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizləri, neft və qaz boru kəmərlərinin inşası regional iqtisadi təhlükəsizlik üzrə əməkdaşlığın nümunəsi kimi çıxış edir. Eyni zamanda

ölkənin yerləşdiyi coğrafi şərait ona mühüm üstünlüklər verməklə yanaşı, onu bir sıra təhdidlərlə də üzləşdirir. Buna görə də AR-in regional iqtisadi təhlükəsizlik qurumlarına, xüsusən də, Aİ-yə müxtəlif səviyyələrdə inteqrasiya olunması zərurəti yaranır.

Aİ-nin genişlənməsi avropa qitəsində təhlükəsizliyin möhkəmlənməsi yolunda böyük addımdır. Bu eyni zamanda İttifaqın xarici sərhədlərinin dəyişilməsi deməkdir. Bu vəziyyət yeni imkanlar yaratdığı kimi, yeni vəzifələri də qarşıya qoymuş, yeni vəzifələrdən doğan təhlükəsizliyin təminat miqyası da dəyişilmiş oldu.

Genişlənmə yeni üzv-dövlətlərlə yanaşı yeni problemləri də bərabərində gətirmişdir. Aİ artıq yeni üzv-dövlətlərin qəbulunu davam etdirmək həm istəyində, həm də iqtidarında deyil. Əvvəlcədən nəzərdə tutulmuş dövlətlər istisna olmaqla yeni üzv-dövlətlərin qəbulu nəzərdə tutulmur. Aİ-nin şərqə doğru genişlənməsindən sonra meydana gələn problemlər, xüsusən də dövlətlərin daxili problemlərinin həlli zərurəti, Aİ-nin gələcək təhlükəsizliyinin məhz qonşu dövlətlərdəki stabillik, inkişafın təminatından, düzgün dövlət idarəçiliyindən asılı olması onu yeni, xüsusi münasibətlər modeli axtarib tapmağa vadar etdi. Bu elə bir əməkdaşlıq modeli olmalı idi ki, həm Aİ-ni, həm də qonşu dövlətləri eyni dərəcədə qane etmiş olsun. Formal olaraq bu əməkdaşlıq ilkin variantda Avropa Yeni Qonşuluq Siyasəti ilə bəyan edilmişdir. Daha sonra Avropa Yeni Qonşuluq Siyasəti Avropa Qonşuluq Siyasəti (AQS) kimi qəbul edilmişdir. Avropa Strateji Təhlükəsizlik sənədində məqsədlər sırasında qonşularla daha sıx münasibətlərin qurulması, Avropanın qonşu dövlətlərində münaqişələrin həll olunması məsələsinin mühümlüyü, qonşu dövlətlərdə əlverişli inkişaf şəraitinin yaradılması qeyd olunur. Bu sahədə Aİ-nin aprobasiya olunmuş tərəfdaşlıq və əməkdaşlığı üzrə beynəlxaql hüquqi mexanizmləri də mövcuddur. Qəbul edilmiş beynəlxalq müqavilə mexanizmlərinə yeni stimul verilməkdədir. Belə stimullardan biri də məhz AQS-dir. AQS Aİ-nin genişlənmə dövrü üçün preventiv təhlükəsizliyə xidmət etməli, qəbul edilmiş beynəlxalq hüquq normalarının tərəfdaş dövlətlərdə implementasiyasına yeni nəfəs verməlidir. AQS bu günün mürəkkəb dünya problemlərilə - qloballaşma və rifah səviyyəsi arasında kəsgin fərq, miqrasiyanın qaydaya salınması, sərhədlərin təhlükəsizliyi, mütəşəkkil cinayətkarlıq, terrorizm və ekstrimizimə qarşı mübarizə, ətraf mühitlə, ictimai sağlamlıqla əlaqədar narahatçılıq, yoxsulluq, təhlükəsizliyin mövcud olmaması, ümumqonşuluq sahəsində miqrasiya təzyiqi və resurs çatışmazlığı ilə bağlı vətəndaşarın ümid və qorxularına beynəlxalq hüquqi əməkdaşlıq səviyyəsində bir cavab kimi də çıxış edir.

Bu siyasətin məqsədi yeni, daha intensiv qarşılıqlı münasibətlərin qurulması vasitəsilə düzgün idarəçilik, iqtisadi inkişafın təbliğ olunması ilə daha effektli idarəçiliyi, bazar iqtisadiyyatında, aparıcı sektorlarda daimi inkişaf və reformlaşdırma kimi qarşılıqlı və ya ümumi maraqlar və dəyərlərə əsaslanan faydalı əməkdaşlığın yaradılmasıdır.

Bu zaman əməkdaşlığın beynəlxalq hüquqi əsaslarının tərəfdaş dövlətlərin daxili qanunvericiliyində həyata keçirilməsi, daxili normaların Aİ standartlarına uyğunlaşdırılması mühüm əhəhmiyyət kəsb edir. İqtisadi, enerji təhlükəsizliyi, investisiyaların qarşılıqlı təşviqi üzrə Aİ ilə bərabərhüquqlu əməkdaşlığın beynəlxalq hüquqi əsası müvafiq tədqiqat işinin əsas istiqamətini təşkil edir.

**Tədqiqatın işlənmə dərəcəsi.** AQS daha çox siyasi məsələləri əhatə etdiyindən həm beynəlxalq münasibətlər sferasında tədqiqat aparan alimlərin, həm də hüquqşünasların araşdırma obyektini təşkil edir. Bu məsələ və onun ayrı-ayrı aspektləri ilə Arista Mariya Kirtotas (Arista Maria Cirtautas), Frank Şimmelfenninq (Frank Schimmelfennig)[1], Tierri Balzaq (Thierry Balzacq)[2], Sara Volf (Sarah Wolff)[3], Riçard G. Vitmen (Richard G. Whitman), Stefan Volf (Stefan Wolff)[4], N.Sabanadze[5], Elnur Nuriyev[6], Bart Van Vuren (Bart Van Vooren)[7], Marisa Kremona (Marise Cremona)[8] məşğul olmuşlar. Onların tədqiqatları AQS-lə bağlı xeyli dəyərli töhfələr

[1] Arista Maria Cirtautas & Frank Schimmelfennig Europeanisation Before and After Accession:Conditionality, Legacies and Compliance // EUROPE-ASIA STUDIES Vol. 62, No. 3, May 2010, 421–441.
[2] The external dimension of EU Justice and home affairs. Governance, Neighbours, Security. Edited by Thierry Balzacq. Palgrave 2009. 283 p.
[3] The Mediterranean Dimension of the European Union's Internal Security. Sarah Wolff. Palgrave Macmillan, 27.11.2012. 288 p.
[4] The European Neighbourhood Policy in Perspective. Context, Implementation and Impact. Edited by Richard G. Whitman and Stefan Wolff. Palgrave Macmillan, 2009. 274 p.
[5] N.Sabanadze (2002), 'International Involvment in the South Caucasus', ECMI Working Paper 15. Flensburg: European Centre for Minoruty Issues.
[6] E.Nuriyev (2007) 'EU Policy in the South Caucasus: A View from Azerbaijan', CEPS Working Document 272 (July), p.13.
[7] EU External Relations Law and the European Neighbourhood Policy: A Paradigm for Coherence. Bart Van Vooren. 2012. 384 p.
[8] The enlargement of the European Union, Marise Cremona, European University Institute, Oxford University Press, 2003, 260p.;Developments in EU: external relations law. Marise Cremona. Oxford University Press, 2008. 319 p.

versə də, həmin əsərlərin əksəriyyəti ya AQS-in ümumi məsələlərinə, ya da digər tərəfdaş dövlətlərlə əməkdaşlığa həsr edilib. Aİ-nin AQS çəçivəsində AR-lə iqtisadi əməkdaşlığının hüquqi aspektlərinin kompleks şəkildə təhlilinə ilk dəfə bu tədqiqat işində təşəbbüs göstərilmişdir.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqat işinin predmetini Qonşuluq siyasəti istiqamətində Aİ ilə AR arasında iqtisadi əməkdaşlığın beynəlxalq hüquqi problemləri təşkil edir.

Tədqiqat işinin obyektini Aİ qonşuluq siyasətindən doğan Aİ ilə AR arasında beynəlxalq münasibətlər təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas ***məqsədini*** Aİ təhlükəsizlik standartlarının kompleks təhlil edilməsi, AR-in müvafiq standartları implementasiya etməsi istiqamətində beynəlxalq hüquqi tədbirlərin öyrənilməsi və onların təkmilləşdirilməsi təşkil edir. Bu məqsədin reallaşdırılması üçün aşağıdakı həlli zəruri olan ***vəzifələr*** müəyyən edilmişdir:

– AQS-in təsis edilməsi zərurətinin açıqlanması;
– AQS-nin mahiyyətinin və fəaliyyət istiqamətlərinin öyrənilməsi;
– AQS ilə bağlı olan hüquqi təminat vasitələrinin araşdırılması;
– AR-in Aİ-yə inteqrasiyası istiqamətli prioritetlərinin şərh edilməsi;
– kollektiv təhlükəsizlik mexanizmlərinin öyrənilməsi;
– Aİ standartlarının hüquqi əhəmiyyətinin tədqiq edilməsi;
– Aİ və AR arasında iqtisadi əməkdaşlığın beynəlxalq hüquqi əsasının öyrənilməsi;
– AQS-nin təşviq etdiyi istiqamətləri həyata keçirən əməkdaşlığın tədqiq edilməsi;
– AQS və Şərq Tərəfdaşlığının Aİ təsis aktları ilə qarşılıqlı əlaqəsinin təhlili;
– Aİ-nin fəaliyyət istiqamətlərinin regional təhlükəsizlik sistemi üçün əhəmiyyətinin tədqiq edilməsi;
– Aİ-nin inteqrasiya xarakterli AQS və şərq tərəfdaşlığı təhlükəsizlik konsepsiyasının AR-in iqtisadi təhlükəsizliyi ilə qarşılıqlı əlaqəsinin beynəlxalq hüquqi istiqamətlərinin öyrənilməsi;
– Aİ-nin iqtisadi-sosial təhlükəsizlik modelinin, o cümlədən enerji, investisiya, gömrük-tarif sferasında beynəlxalq hüquqi əsasının AR qanunvericilik sistemi üçün əhəmiyyətinin müəyyən edilməsi.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işi Aİ ilə AR-in inteqrasiya istiqamətli iqtisadi təhlükəsizliyinin, əməkdaşlığının beynəlxalq hüquqi

əsaslarına həsr edilmiş ilk tədqiqat əsəridir. İşdə Aİ iqtisadi təhlükəsizlik siyasətinin məqsəd və vəzifələrinin əsasını təşkil edən Aİ hüquq qaydasının AR-in hüququna inteqrasiyasının beynəlxalq hüquqi vasitələri tədqiq edilir.

Əldə edilən nəticələrə uyğun olaraq müdafiəyə aşağıdakı ***yeni elmi müddəalar*** təqdim edilir:

1. AQS qonşu dövlətlərin Aİ-yə üzv olmadan qanunvericiliyin, hüquq qaydasının Aİ standartlarına harmonizasiya edilməsini nəzərdə tutur. Bu zaman hansı ölkənin bu prosesi daha səmərəli keçməsi onun üçün əməkdaşlığın daha da dərinləşməsini və bəzi hallarda müəyyən qrup dövlətlərə münasibətdə gələcək üzvlüyü nəzərdə tutacaq. Başqa sözlə, tərəfdaş dövlət Aİ standartlarına uyğunluq meyarını hər hansı bir üzvlükdən öncə təmin etməlidir. AQS-nin bütün sahələr üzrə əməkdaşlığı nəzərdə tutması da həmin proseslə bağlı izah edilməlidir.

2. AQS, adında da qeyd olunduğu kimi, ideya, yaranma xüsusiyyəti etibari ilə daha çox siyasi mahiyyət kəsb edir və Aİ üzv dövlətləri və tərəfdaş dövlətlərlə münasibətləri tənzimləyir. AQS-də nəzərdə tutulan fəaliyyət istiqamətləri Aİ ilə əməkdaşlığın beynəlxalq hüquqi əsasını nəzərdə tutan beynəlxalq müqavilələrlə eynilik təşkil edir. AQS post-sovet ölkələri ilə Tərəfdaşlıq və Əməkdaşlıq Müqavilələri (TƏM) ilə və Aralıq dənizi hövzəsi ölkələri ilə bağlanmış Assosiativ üzvlük və Əməkdaşlıq üzrə Müqavilələrlə ehtiva edilmiş öhdəliklərin yerinə yetirilməsi kvazi və beynəlxalq hüquqi normaların məcmusudur.

3. AQS, iştirakçı dövlətlərlə, o cümlədən AR ilə beynəlxalq əməkdaşlığın kvazi hüquqi əsası olaraq Aİ hüquq normalarının AQS iştirakçı dövlətlərinin daxili hüququnda implementasiyasını nəzərdə tutur. 2006-cı il AQS Fəaliyyət Planı ilə yanaşı Aİ hüququnun AR-in hüququna implementasiya edilməsi öhdəliyi bağlanmış beynəlxalq sazişlərlə, o cümlədən Aİ ilə AR arasında TƏM-in 43 maddəsində nəzərdə tutulur.

4. Avropa iqtisadi məkanına daxil olan dövlətlərlə bir çox prioritet sahələrdə üst-üstə düşən qanunvericilik AR-ə Aİ ölkələri ilə daha yaxın iqtisadi tərəfdaş olmağa və texniki qaydalar və standartlar, yeyinti və yem məhsullarının təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti, istehlakçıların hüquqlarının müdafiəsi, rabitə və informasiya texnologiyaları, energetika, gömrük, işçilərin iş yerlərində mühafizəsi, dövlət satınalmaları, rəqabət qaydaları və dövlət yardımı, hüquqi şəxslər, vergilər, əqli mülkiyyət hüquqlarının müdafiəsi, nəqliyyat, ətraf mühitin mühafizəsi, maliyyə xidmətləri və digər sahələr üzrə xüsusi məqsədlərə nail olmağa imkan verəcək. Bu sektorlarda hüquqi və institusional islahatların həyata keçirilməsi AR-in idxalatçı və ixracatçı qismində beynəlxalq bazara

çıxmaq, effektiv rəqabət və istehlakçıların hüquqlarının qorunmasına uyğun olaraq birbaşa sərmayələri təşviq etmək imkanlarını artıracaq.

5. AQS Aİ-nin və tərəfdaş dövlətlərin qarşılıqlı təhlükəsizliyinin təmina edilməsi zərurətindən irəli gəlməklə Aİ üçün dayanıqlı sosial-iqtisadi təhlükəsizlik məzmunu kəsb edirsə, tərəfdaşlar üçün təbii resursların suveren hüquqlarına və beynəlxalq hüquqa uyğun olaraq bərabər tərəfdaşlıq əsasında realizəsi anlamına gəlir. AQS-in meydana gəlməsinin məğzində 2 əsas nüans (iqtisadi təhlükəsizlik, qeyri-müəyyən müddətə genişlənmə prosesinin dayandırılması) durur. Bunlar da AQS-in gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində təhlükəsizlik və genişlənmə kriteriyasını əsas götürür. Genişlənmənin təmin edilməsi yeni adla fəaliyyət planlarını da istisna etmir. Onlardan biri də Şərq Tərəfdaşlığı təşəbbüsüdür.

6. AQS çərçivəsində yeni mərhələ olan Şərq Tərəfdaşlığı çərçivəsində Aİ ilə şərq sərhəddi üzrə qonşu olan 6 dövlətlə, o cümlədən AR-lə münasibətlərin inkşafı istiqamətində TƏM-lərin Assosiasiya Sazişləri ilə əvəz olunması zəruridir.. Assosiasiya Sazişlərin imzalanması üçün müvafiq dövlətin lazımi həddə öhdəliklərini yerinə yetirməsi əsas şərtlərdən biridir. Bu istiqamətdə tərəfdaş dövlətlərdən hər hansı birinin ÜTT-ə üzv olması halında onunla azad ticarət zonasının yaradılması, vizanın liberallaşdırılması, o cümlədən enerji sahəsində daha sıx əlaqələrin qurulması nəzərdə tutulur.

7. Şərq Tərəfdaşlığı qarşılıqlı öhdəliklərə əsaslanmaqla bir çox sahələrdə, o cümlədən iqtisadi-energetika, investisiya, gömrük, vergi və s. münasibətlər sferasında Aİ hüququna uyğun tənzimetməni şərtləndirir. Lakin bu zaman şərq tərəfdaşı dövlətlərinin iqtisadi statusunun beynəlxalq hüquqi əsası nəzərə alınmalıdır. Məsələn, energetika sferasında Aİ bazarındakı mütləq liberallaşdırma prinsipi bu dövlətlərdə müəyyən bir keçid vaxti ilə nəzərdə tutula bilər.

8. Fəaliyyət planına əsasən Azərbaycan tərəfi öz daxili enerji fəaliyyətini tədricən Aİ-nin daxili elektrik və qaz bazarlarının prinsiplərinə uyğunlaşdırmaq və enerji sektorunda struktur islahatları aparmaq öhdəliyi götürüb. Enerji bazarının idarə edilməsində həlledici prinsiplər kimi bazarın liberallaşdırılması, qısamüddətli kontrakt sisteminin tətbiqi, təchizatın alternativliyi, enerji resurslarının tranzitinin azadlığı, enerji səmərəliliyinin təmin edilməsi, enerji resurslarının ticarət və ya təchizat kontraktlarında ayrı-seçkiliyə yol verməmək; enerji şəbəkələrinə üçüncü tərəfə sərbəst çıxış hüququnun verilməsi; daxili istehlak bazarında şəffaflığın təmin edilməsi üçün transparentliyin təmini; enerji daşıyıcılarının tarifləri haqqında istehlakçıların məlumat almaq hüququ və s. təmin edilməlidir.

9. Ölkəyə xarici, eləcə də Aİ sərmayədarlarının cəlb edilməsində daxili qanunvericiliyin beynəlxalq hüquqla nəzərdə tutulan anlayış və məzmun istiqamətində islahatı mühüm əhəmiyyət kəcb edir. Bu da iki yolla təmin edilə bilər. Bir halda həmin qanunvericilikdə beynəlxalq müqavilə normalarının prioritetinin tanınması, digər halda isə daxili qanunvericiliyin harmonizasiya edilməsi. AR qanunvericiliyində birinci hal üstünlük təşkil etdiyindən daxili qanunvericilik terminlərinin tərəfdar çıxılan beynəlxalq hüquq normaları ilə ziddiyyət halı hüquqi tənzimetmə üçün problem yaratmamalıdır.

10. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində gömrük qanunvericiliyi mühüm əhəmiyyət kəsb etdiyindən bu sahənin beynəlxalq hüquqa uyğunlaşdırılması prioritet xarakter kəsb edən məsələlərdəndir. Bu baxımdan AR Gömrük Məcəlləsində beynəlxalq hüquq normaları ilə daxili qanunvericiliyin nisbət məsələsinə münasibət bildirilməsi olduqca vacibdir. Beynəlxalq hüquqi əməkdaşlığın vasitəsi kimi beynəlxalq hüquq normalarının üstünlüyünün tanınması beynəlxalq iqtisadi əməkdaşlığın təşviqi üçün həlledici stimullardan biridir.

**Tədqiqatın metodoloji əsasları.** Ümumelmi metodlar kimi tədqiqatın əsasını analiz, sintez, tarixilik, məntiqi və xüsusi: formal-hüquqi, sistemli-hüquqi, tarixi-hüquqi, müqayisəli-hüquqi metodlar (prinsiplər) təşkil edir.

**Tədqiqat işinin nəzəri əsasını** aşağıdakı adları qeyd edilən mütəxəssis və tədqiqatçıların əsərləri təşkil edib: Arçer K., Bekker P., Bennett A. L., Borisov K.Q., Denisov V. N., Doronina N.Q., Henkin L., İqnatenko Q. V., Kapustin A. Y., Kartaşkin V. A., Kaşkin S.Y., Kissincer H., Kovalyova T. M., Kozırin A.N., Kolosov Y. M., Kolyar K., Krivçikova E. S., Krivıx O. V., Kroes N., Kuzneçov V. İ., Kurdyukov Q. İ., Qalperin M., Qebali V. İ., Lukaşuk İ. İ., Maleyev Y. N., Malinin S. A., Malkollm N. Şou, Marqiyev V. İ., Merejko A.A., Moiseyev E. Q., Morqentau Q., Rozenn Ş., Roqqenkamp M., Sandrovski K.K., Seyersted F., Semilyutina N.Q., Şibayeva E. A., Şinkareçkaya Q. Q., Şlessinger. G., Timçenko İ.D., Tolkuşkin A.V., Tunkin Q. İ., Usenko E. T., Uşakov N. A., Valde T. və s.

Azərbaycan müəllifləri: Əliyev Ə. İ., Həsənov Ə., Hüseynov L. H., Hüseynov T.İ., Hüseynova H. K, Məmmədov R. F., Məmmədov R. K., Məmmədov Ə.Q., Sadıqov Ə. İ. və b. əsərlərindən də istifadə edilmişdir.

**Tədqiqatın normativ əsasını** Aİ-nın təsis aktları, AQS üzrə fəaliyyət Planı, Aİ-nin iştirakı ilə qonşu dövlətlərlə bağlanan beynəlxalq müqavilə və sazişlər, o cümlədən AR-in beynəlxalq müqavilələri, dövlətdaxili qanunvericilik aktları təşkil edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Əldə olunan nəticələrin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Tədqiqat işində Aİ iqtisadi təhlükəsizlik sisteminin ayrı-ayrı elementləri, onun normativ əsasları tədqiq edilib. Dissertasiya tədqiqatının nəticələri üzrə ifadə edilmiş tövsiyə və təkliflər AR-in Aİ-lə inteqrasiyanın beynəlxalq hüquqi əsaslarının təkmilləşdirilməsində, o cümlədən, bu istiqamətdə gələcəkdə hər hansı tədqiqat işinin yazılmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqat işi Bakı Dövlət Universitetinin Hüquq fakultəsinin «Beynəlxalq ümumi hüquq», «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedralarının birgə iclasında müzakirə edilib. Işin əsas müddəaları AR-in və xarici ölkələrin elmi dərgilərində dərc edilib.

**Tədqiqat işinin qurluşu.** Tədqiqat işinin quruluşu onun predmeti, məqsəd və vəzifələri ilə şərtləndirilib. Iş girişdən, üç fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat işinin aktuallığı əsaslandırılır, tədqiqatın araşdırılma dərəcəsi, predmeti və obyekti, tədqiqat işinin məqsəd və vəzifələri, elmi yeniliyi, dissertasiyanın metodoloji və nəzəri əsaslari, tədqiqat işinin normativ əsasını, tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti, tədqiqatiın nəticələrinin aprobasiyasi, işin strukturu barədə məlumatlar qeyd olunur.

Birinci fəsil – "**Avropa Qonsuluq Siyasətinin meydana gəlməsi və onun üfüqi inteqrasiya üçün əhəmiyyəti**" adlanır və **üç paraqrafdan** ibarətdir. ***Birinci paraqraf "Avropa Qonşuluq Siyasətinin təsis edilməsi zərurəti"*** – bu paraqrafda Aİ-də AQS-in meydana gəlməsini zəruri edən amillər, bu siyasətin Avropa təhlükəsizlik konsepsiyasında yeri kimi nüanslar qeyd olunur, Aİ-nin Ümumi Xarici və Təhlükəsizlik Siyasəti (ÜXTS) araşdırılır, onun əsas prinsipləri tədqiq olunur. Aİ-nin şərqə doğru genişlənməsindən sonra meydana gələn problemlər, xüsusən də dövlətlərin daxili problemlərinin həlli zərurəti, Aİ-nin gələcək təhlükəsizliyinin məhz qonşu dövlətlərdəki sabitlik, inkişafın təminatından, düzgün dövlət idarəçiliyindən asılı olması onu yeni, xüsusi münasibətlər modeli axtarib tapmağa vadar etdi. Bu elə bir əməkdaşlıq modeli olmalı idi ki, həm Aİ-ni, həm də qonşu dövlətləri eyni dərəcədə qane etmiş olsun. Bu AQS timsalında həyata keçirilir. İdeya baxımından hələ 90-ci illərdə meydana gəlmiş, 2003-cü ildə isə Avropa Komissiyasının "Böyük Avropa qonşuları: Aİ-nin Şərq və Cənub qonşuları ilə qarşılıqlı münasibətinin yeni çərçivəsi"

adlı hesabatında bəhs olunan AQS, formal olaraq 2004-cü ilin mayında Avropa Qonşuluq Siyasəti haqqında Strateji Hesabatın (Strategy Paper on the European Neghbourhood Policy) qəbul olunması ilə meydana gəlmişdir. AQS konsepsiyasının əsas elementləri odur ki, qonşularla münasibətlər qarşılıqlı şəkildə qanunun aliliyi, insan hüquqularına hörmət, o cümlədən azlıqların hüquqlarına riayət olunması, bazar iqtisadiyyatı prinsiplərinə və davamlı inkişaf kimi ümumi dəyərlərə bağlılıq əsasında qurulmalıdır. AQS – Aİ-nin şərq və cənubdakı 16 qonşu dövlətlə - Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Əlcəzair, İordaniya, İsrail, Livan, Liviya, Misir, Mərakeş, Moldova, Suriya, Tunis, Ukrayna, Fələstin Muxtariyyəti- münasibətləri tənzimləyən xüsusi qaydalar sistemidir. Bu siyasətin məqsədi yeni, daha intensiv qarşılıqlı münasibətlərin qurulmasi vasitəsilə düzgün idarəçilik, iqtisadi və sosial inkişaf, müasirləşmə və islahatların təbliğ olunması yolu ilə daha effektli dövlət idarəçiliyi, inkişaf, sabitlik və təhlükəsizlik; demokratiya, insan hüquqları və qanunun aliliyi; bazar iqtisadiyyatında, aparıcı sektorlarda daimi inkişaf və reformlaşdırma kimi qarşılıqlı və ya ümumi maraqlar və dəyərlərə əsaslanan faydalı dairənin yaradılmasıdır. Bu fəsildə AQS üzrə digər tərərfdaş dövlətlərin təcrübəsindən də bəhs olunur.

Aİ-nin AQS-i həyata keçirməkdə əsas strateji məqsədi özünün iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. AQS siyasətinin məqsədlərindən öndə gələni Aİ-nin iqtisadi təhlükəsizliyinin təmin olunması ilə yanaşı, onun sabit və davamlı inkişafını təmin etməkdir. Öz növbəsində Avropa təhülkəsizliyinin realizəsinin ən güclü aləti AQS-dir. Burada mühüm amil dövlətlərin, xüsusilə tərəfdaş dövlətlərin BMT Nizamnaməsinin fundamental prinsiplərinə, həmçinin ATƏT çərçivəsində qəbul edilən prinsip və öhdəliklərə riayət etməsidir. AQS-in həyata keçirilməsində tərəfdaş dövlətlərin məqsədi də iqtisadi maraqlardır. Belə ki, bu maraqların təmin olunması onların təbii sərvətlərinin beynəlxalq bazara maneəsiz çıxışı, daxili bazarlarına isə daha çox investisiya axımının artırılması, həmçinin AQS çərçivəsində Aİ-nin vəd etdiyi digər dəstəklərdən bəhrələnməkdir.

*“Avropa Qonşuluq Siyasətinin maddi hüquqi və institusional əsasları”* adlı birinci fəslin ikinci paraqrafı iki yarımparaqrafdan ibarədir. ***Birinci yarımparaqraf “Avropa Qonşuluq Siyasətinin maddi hüquqi əsasları”*** adlanır. AQS-in maddi hüquqi əsasını bir neçə yerə bölmək olar: - sərt hüquq (hard law); yumşaq hüquq (soft law); qeyri-hüquqi siyasi alətlər. Əslində AQS ilə bağlı rəsmi sənədlərdə birbaşa ümumməcburi qüvvə kəsb edən normalar mövcud olmasa belə, analogiyaya uyğun olaraq, Aİ-nin xarici siyasətində rəhbər tutduğu prinsip və normalar AQS üçün

eyni əhəmiyyət kəsb edir. Aİ haqqında Lissabon Müqavilənin 8-ci maddəsinə uyğun olaraq, Aİ ona qonşu olan dövlətlərlə İttifaqın ümumi dəyərlərinə və əməkdaşlığa əsaslanan sıx və dinc münasibətləri xarakterizə edən inkişaf və xoş qonşuluq sahəsi yaratmaq kimi məqsədləri rəhbər tutaraq münasibətlər qurur və inkişaf etdirir. İttifaqın ümumi dəyərləri dedikdə əsasən demokratiya və qanunun aliliyi başa düşülür. Aİ-nin xarici siyasətdə rəhbər tutduğu oxşar prinsiplər Aİ haqqında Müqavilənin 21-ci maddəsində də əks olunur. Hər ikisi demokratiya institutlarının və qanunun aliliyinin nə dərəcədə qəbulluğu ilə bağlıdır. AQS çərçivəsində "Aİ" modelinə gedən yolla bağlı coxlu əhatəli gündəm işlənib hazırlanır, hətta onların bəziləri birbaşa *acquis communautaire* tam əhatə etməsə belə, qonşu dövlətlərdə demokratiyanın əsası kimi qanunun aliliyinin dəstəklənməsi, yayılması dolayısı ilə Aİ qanunun yayılması, yəni Aİ sərhədlərindən də kənarda "qanun məkanının" genişlənməsi kimi qeyd oluna bilər. Aİ AQS vasitəsilə tərəfdaş dövlətlərə üzvlük vəd etmədən ətrafında "qanuni məkanın" yaradılması niyyətindədir. Lakin get-gedə üzvlüyün istinası öz aktuallığını itirir. Aİ-nin bütün xarici siyasət konsepsiyalarında Aİ-nin tərəfdaş dövlətlərə öz ölkələrində demokratiya və insan hüquqlarının yayılmasına bu və ya digər yolla yardım edilməsi haqqında müddəa əks olunur. Bu həmçinin siyasi şərtləndirmə prinsipi ilə də həyata keçirilir. Siyasi şərtləndirmə prinsipinin mahiyyəti odur ki, Aİ öz xarici siyasət tərəfdaşlarına demokratiya və insan hüquqlarına riayət etmələri qarşılığında iqtisadi (maliyyə yardımı) və siyasi (üzv-dövlət statusu ilə) bonuslar təklif edir.

Aİ-nin ÜXTS-də AQS mühüm yer tutur. Aİ-nin ÜXTS ilə bağlı ayrıca təsisat aktı mövcud deyil. Bu sahədə səlahiyyətlərlə bağlı müddəalar Aİ haqqında Müqavilənin "Ümumi xarici siyasət və təhlükəsizlik siyasəti haqqında Müddəalar" adlı V bölməsində təsbit edilir. Aİ haqqında Lissabon Müqaviləsi qüvvəyə minənə qədər ÜXSTS ikinci "dayaq" statusu daşıyırdı. 2009-cu ildə onun qüvvəyə minməsi ilə dayaq sistemi başa çatdi, dolayısı ilə ÜXSTS-nin "dayaq" statusu da sona çatmış oldu. Bununla yanaşı Lissabon Müqaviləsi Aİ-nin xarici siyasətində uyğunlaşmanı və ardıcıllığı təmin edir, ÜXSTS sahəsində nümayəndəlik yaradır, de facto bu ÜXSTS sahəsində nümayəndəlik, xarici əlaqələr və AQS sahəsində Nümayəndəlik-lərin birləşməsi deməkdir. Lissabon Müqaviləsi Aİ-nin üzv-dövlətlərlə, tərəfdaşlarla, xüsusilə qonşu dövlətlərlə münasibətlərinin keyfiyyət göstəricilərini artırmaq üçün əlverişli şərait yaratdı. AQS-in tənzimetmə aspektləri 2003-cü il Avropa Təhlükəsizlik Strategiyasının qəbul edilməsi, 2004-cü və 2007-ci illərdəki genişlənmə prosesinin sona yetməsi, Aİ-nin

özünün xarici siyasət sahəsində normativ məqdsədlərinin formalaşması və 2007-ci il Lissabon Müqaviləsinin qüvvəyə minməsi ilə möhkəmlənmişdir.

AQS-in hüquqi əsası dedikdə, ilk növbədə TƏM və Assosiasiya müqaviləsi nəzərdə tutulur, daha sonra isə, ikinci əsas mənbə kimi elə bu müqavilələrin əsasında, onların ardı kimi qəbul olunmuş Fəaliyyət Planı qeyd olunmalıdır. Aİ və Cənubi Qafqaz dövlətləri arasında imzalanmış TƏM 1999-cu il iyulun 1-dən qüvvəyə minmişdir. TƏM-i əvəz edəcək Assosiasiya Müqaviləsi ilə bağlı danışıqlar artıq 2010-cu ilin başlanğıcından hazırlıq mərhələsindədir. Avrokomissiyanın 12 may 2004-cü il Məlumatında göstərilir ki, Fəliyyət Planının müddəalarının realizə olunmasından asılı olaraq gələcəkdə onlar yeni müqavilələrlə (European Neighbourhood Agreements) əvəz olunacaqlar. "Fəaliyyət Planı" əslində artıq mövcud olan müqavilələrin – TƏM və Assosiativ üzvülük haqqında Müqavilə - əsasında, onların davamı kimi bağlanır. Fəaliyyət Planı hüquqi cəhətdən məcburi hüquqi qüvvəyə malik deyil. Daha dəqiq desək, "Fəaliyyət Planında" əks olunan müddəaların, xüsusilə demokratik prinsiplərlə bağlı müddəaların yerinə yetririlməsi və bunun qarşılığında Aİ-nin "təltifləri" məcburi xarakterli normalar kimi qeyd olunmadığından bütün bunlar son nəticədə siyasi şərtləşmənin keyfiyyətliliyini aşağı salır. Nəticə etibarilə qeyd etmək lazımdır ki, AQS və Şərq Tərəfdaşlığı ilə bağlı siyasətin hüquqi əsası kimi Aİ haqqında müqavilənin 8-ci maddəsi (qonşu ölkələrlə xüsusi münasibətlər) və V fəsli (Aİ-nin xarici fəaliyyəti), o cümlədən Aİ-nin funksiyaları haqqında müqavilənin 207-ci maddəsi (ticarət), 216-218-ci maddələri (beynəlxalq müqavilələr) çıxış edir. 217-ci maddə demək olar ki, birbaşa AQS çərçivəsində adı çəkilən assosiativ birliyin yaradılmasının əsasını təşkil edir. İkitərəfli müqavilə kimi, birinci növbədə Şərq qonşularla TƏM və Avro-Aralıq dənizi Assosiasiya Müqavilələri (Aralıq dənizi boyu qonşularla) və ikinci əsas mənbə kimi elə bu müqavilələrin əsasında və onlar realizə forması kimi qəbul olunmuş Fəaliyyət Planı çıxış edir. AQS çərçivəsində iqtisadi əməkdaşlığın hüquqi əsası kimi isə yuxarıda adları çəkilən sənədlərlə yanaşı ÜTT standartları çıxış edir ki, bu da TƏM və Assositiv üzvülük haqqında Müqavilələrdə öz əksini tapmışdır.

***İkinci yarımparaqraf Avropa Qonşuluq Siyasətinin institusional əsasları*** adlanır. Avropa Komissiyanın tərkibində bir neçə komissarlıq mövcuddur. Bunlardan bir də Xarici əlaqələr üzrə komissarlıqdır – Avropa Xarici Fəaliyyət Xidməti. Bu Aİ-nin bir növ Xarici İşlər Nazirlyi kimi fəaliyyət göstərən qrumudur. AQS məsələlərindən məsul komissar Avropa genişlənmə və AQS üzrə komissardır.

Avropa Komissiyasının tərkibində fəaliyyət göstərən İnkişaf və Tərəfdaşlıq – Avroyardım (DEVCO - Development and Cooperation – EuropeAid) AQS-in realizəsində mühüm rol oynayan qurumlar sırasındadır. Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti AQS-i maliyyə baxımından təmin edən əsas qurumdur. 2007-ci ildən AQTA TACİS (Şərqi Avropa dövlətləri üçün) və MEDA (Aralıq dənizi dövlətləri üçün) vasitəsilə yardımın koordinasiya olunmuş davamçısıdır. 2007-2013-cü illər üçün AQTA-in büdcəsi 12 milyard avro təşkil edir. Aİ-də AQS münasibətlərini çərçivə xarakterli müqavilələrlə tənzimləndiyindən onun tərkibində geniş səlahiyyətli institut da mövcud deyil. AQS-in maliyyələşməsi, onun çərçivəsində həyata keçirilən layihələr, hesabatların dinlənilməsi, prosesə rəhbərlik bir institut tərkibində deyil, yuxarıda da qeyd olunduğu kimi şaxəli şəkildə bir neçə orqanın birgə fəaliyyəti ilə həyata keçirilir.

Oxşar hal AR-də də müşahidə olunur. Burada isə səlahiyyətlərin şaxələnməsinin əsas səbəbi AQS üzrə nəzərdə tutulan prioritet məsələlərin çox geniş sahələri əhatə etməsi, bir deyil, bir neçə orqanın salahiyyətində olan məsələləri tənzimləməsidir. Lakin bu tədqiqat işinin əhatə etdiyi sferalara uyğun məsələlər bilavasitə - AR Nazirlər Kabineti, AR Milli Məclisi, AR İqtisadi İnkşaf Nazirliyi, AR Dövlət Gömrük Komitəsi və s. dövlət orqanları tərəfindən həyata keçirilir.

***Şərq Tərəfdaşlığının hüquqi aspektləri*** adlanan ***üçüncü*** paraqrafda Şərq Tərəfdaşlığı ilə bağlı ilk təşəbbüs Polşa və İsveç dövlətləri tərəfindən Aİ Xarici İşlər Nazirlərinin 26 may 2008-ci il tarixində Brüsseldə keçirilmiş görüşdə olmuşdur. Daha sonra Avropa Komissiyası tərəfindən 3 dekabr 2008-ci ildə Şərq Tərəfdaşlığı təşəbbüsü üzrə Məlumat Sənədi və onu müşayət edən İşçi Sənədi Avropa Parlamentinə və Aİ-nin dövlət və hökumət başçıları Şurasına təqdim edildi. Yuxarıda qeyd olunan iki sənəddə Şərq Tərəfdaşlığının yaranma məqsədləri, Aİ-nin gözlədikləri, tərəfdaş dövlətlərlə əməkdaşlıq istiqamətləri kimi məsələlər çərçivəyə salınırdı. Şərq Tərəfdaşlığının əsası 7 may 2009-cu ildə Praqa Sammitində qəbul olunmuş Şərq Tərəfdaşlığı haqqında Birgə Bəyannamə ilə qoyulmuşdur. Avropa Komissiyası AQS üzrə tərəfdaş dövlətlərdən - Azərbaycan, Ermənistan, Gürcüstan, Belarusiya, Moldova, Ukrayna ilə əlaqələri gücləndirmək ideyasını Şərq Tərəfdaşlığı çərçivəsində həyata keçirmək məqsədindədir. Burada sözügedən dövlətlər üçün vahid formatın hazırlanması ön plandadır. O cümlədən yaranma məqsədi kimi, Aİ-yə region baxımından daha yaxın olan tərəfdaş dövlətlərlə siyasi və iqtisadi islahatları genişləndirmək və onlara bu prosesdə dəstək vermək nəzərdə tutulurdu. Bu islahatların əsasında da beynəlxalq hüququn ümumtanınmış

normalarına, fundamental dəyərlərə, o cümlədən dərin və möhkəm demokratiya, qanunun aliliyi, insan hüquq və əsas azadlıqlarına hörmət, həmçinin bazar iqtisadiyyatı, sabit inkişaf və yaxşı idarəçilik prinsipləri durur. Şərq Tərəfdaşlığının əsas məqsədi Aİ və Şərq Tərəfdaşlığı üzrə tərəfdaş dövlətlər arasında siyasi assosiasiyanın sürətləndirilməsi və iqtisadi inteqrasiyanın dərinləşdirilməsidir. Şərq Tərəfdaşlığında şərtlərin bir növ daha sərtləşdiyini görürük. Belə ki, Aİ dəstəyini yalnız AQS və Şərq Tərəfdaşlığında qarşıya qoyulan məqsədlərə daha çox nail olan, bu istiqamətdə effektli nəticələr əldə edən tərəfdaş dövlətlərə daha da artıracağını vəd edir. Bir növ – "nə qədər nəticə, o qədər dəstək" şüarını bura aid etsək yanılmarıq. Şərq Tərəfdaşlığı islahatların yeni səviyyəsi olaraq cəmiyyətlərin və bazarların inteqrasiya olunmasına, sabitliyin layihələndirilməsinə təkan verilməsilə Aİ-dən kənara çıxan yeni sərhədlərin meydana gətirdiyi risqlərin qarşısının alınmasını təmin etməlidir.

**İkinci fəsil – "Azərbaycan Respublikasının Avropa Ittifaqı ilə əməkdaşlığının beynəlxalq hüquqi əsası" üç paraqrafdan ibarətdir.** ***Birinci paraqraf "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın beynəlxalq müqavilə əsası və Avropa Qonşuluq Siyasəti"*** adlanır. AR-in balanslaşdırılmış xarici siyasətində Aİ mühüm rol oynayır. AR Aİ münasibətlərinin kökləri hələ ölkəmiz Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) tərkibində olduğu dövrdən başlayır. Avropa Birliyi və SSRİ arasında Ticarət və Əməkdaşlıq haqqında ilk müqavilə 18 dekabr 1989-cu ildə imzalanmış və 1 aprel 1990-cı ildə qüvvəyə minmişdir. Bu Müqaviləyə əsasən malların ticarəti ilə əlaqədar daha əlverişli milli rejim müəyyən edilir və sovet mallarına münasibətdə bəzi avropa ölkələrinin müəyyənləşdirdiyi kəmiyyət məhdudlaşdırılmasının götürülməsi nəzərdə tutulurdu (m.5-9). Müqavilə həmçinin qarantiya qismində qarşılıqlı tədbirlərin də mümkünlüyünü nəzərdə tutur (m.15) və maliyyə yardımı edilməsi məsələsini tənzimləyirdi. Müqavilədə neft və qazın çatdırılması məsələsini tənzimləyən və ya birbaşa energetika sektoru üçün nəzərdə tutulmuş müddəalar əks olunmurdu. 1 dekabr 1991-ci ildə SSRİ-nin dağılmasından sonra bu Müqavilə yeni yaranmış dövlətlər üçün qüvvədə qaldı.

Müstəqil AR və Aİ arasında münasibətlər 1999-cu ilin iyulunda qüvvəyə minmiş TƏM-ə əsaslanır. Müqavilə 22 aprel 1996-cı ildə Lüksemburqda imzalanmış, Milli Məclis, Avropa Parlamenti və bütün üzv dövlətlərin milli parlamentində ratifikasiya olunduqdan sonra qüvvəyə minmişdir. Müqavilə preambula, 105 maddə, beş əlavə və protokoldan ibarətdir. TƏM çərçivə sazişidir. Aİ və AR arasındakı TƏM 1989-cu ildə SSRİ və Avropa Birlikləri arasında imzalanmış Ticarət, Kommersiya və

İqtisadi Əməkdaşlıq haqqında Müqavilənin məntiqi davamıdır və bu TƏM-in preambula və 104-cü maddəsində də qeyd olunur. TƏM qüvvəyə mindikdən sonra AR və Aİ arasında münasibətlərə tətbiq olunan 1989-cu il müqaviləsini əvəz etdi.

TƏM-ə əsasən Azərbaycan və Birlik arasında iqtisadi əməkdaşlıq həm iqtisadi sferada, həm də iqtisadiyyata yaxın fəaliyyət sahələrində tədbirlərin keçirilməsini nəzərdə tutur. Bu məqsədlə əməkdaşlıq, xüsusən iqtisadi və sosial inkişaf, əmək ethtiyatlarının inkişafı, müəssisələrə kömək (özəlləşdirmə, kapital qoyuluşu və maliyyə xidmətlərinin inkişafı da daxil olmaqla), kənd təsərrüfatı və yeyinti məhsulları sənayesi, enerji, nəqliyyat, turizm, ətraf mühitin mühafizəsi, regional əməkdaşlıq və pul siyasəti üzərində təmərküzləşdirilir. TƏM-in ayrı-ayrı hissələri demokratiya və insan hüquqları sahəsində, hüquqa zidd əməllərin qarşısının alınması üzrə əməkdaşlıq, qeyri-qanuni immiqrasiyanın qarşısının alınması və ona nəzarət, mədəni əməkdaşlıq, həmçinin maliyyə və sair sahələrdə əməkdaşlığı nəzərdə tutur. TƏM əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlər təmin etməklə, AR ilə Aİ arasında münasibətlərə yeni təkan vermişdir. Bu Saziş siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur. Onun əsas məqsədlərindən biri Azərbaycan qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması təşkil edir.

İkinci fəslin ***ikinci paraqrafı "Avropa İttifaqı və Azərbaycan Respublikası arasında əməkdaşlığın kvazihüquqi əsasları və Avropa Qonşuluq Siyasəti"*** adlanır. TƏM-in məqsədlərinə nail olmaq üçün Azərbaycan müvəqqəti olaraq Birlik tərəfindən TASİS proqramı çərçivəsində maliyyə dəstəyindən istifadə edirdi. Bu proqram Avropa Şurasının qərarı ilə 1990-cı ilin dekabrında yaradılmışdır. Maliyyə dəstəyinin məqsədləri və sahələri xüsusi "indikativ" proqram vasitəsilə müəyyənləşir. Şərqi Avropa və Mərkəzi Asiya dövlətlərinə tərəfdaş yardımı göstərməklə bağlı 2000-2006-cı illər dövrü üçün bu proqram Avropa Birliyi Şurasının 29 dekabr 1999-cu il 99/2000 Reqlamenti ilə təsdiqlənmişdir. Sözügedən Reqlament TASİS Proqramının həmin dövür üçün fəaliyyətinin hüquqi bazası sayılır. Daha sonra TASİS Proqramını da özündə birləşdirən AQS, tərəfdaş ölkələr, o cümlədən AR üçün mədəni, təhsil və ətraf mühit kimi sahələr üzrə əlaqələri təşviq edən müəyyən Aİ proqramlarında iştirak imkanları təqdim etmişdir. Bu kontekstdə, xüsusilə Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) çərçivəsində Tvinninq, Texniki yardım və Məlumat mübadiləsi (TAİEX), Büdcəyə dəstək, Tempus, Erasmus Mundus kimi proqramlar qeyd oluna bilər. Daha geniş

mandat və əhatə dairəsinə malik olan AQTA AQS Fəaliyyət Planlarının həyata keçirilməsi üçün əsas maliyyə alətidir. AQTA 3 başlıca strateji məqsədi ehtiva edir: demokratiya və insan hüquqlarının təşviqi, bazar iqtisadiyyatına keçidin asanlaşdırılması və davamlı inkişafın təşviqi, habelə qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın inkişafı.

14 noyabr 2006-cı ilin tarixində qəbul olunmuş AR – Aİ Fəaliyyət Planı daha əvvəl TƏM ilə tənzimlənən AR–Aİ münasibətlərinin gələcək inkişafının istiqamətləri AQS çərçivəsində AR-Aİ Fəaliyyət Planı ilə müəyyən olunmuşdur.

«Yeni İpək Yolu» adlandırılan TRACECA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən bir proqramdır. Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək və Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir. 8 sentyabr 1998-ci ildə Bakıda Azərbaycan və Gürcüstan Prezidentlərinin təşəbbüsü və Aİ-nin TRACECA proqramının dəstəyi ilə “Tarixi İpək Yolunun bərpası” adlı Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda əldə edilmiş ən mühüm nailiyyət Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkiyə, Ukrayna, Moldova, Rumıniya və Bolqarıstanın imzaladığı “Avropa-Qafqaz-Asiya Dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş” (Əsas Saziş) və onun Texniki Əlavələri olmuşdur.

Digər layihə İNOGATE (Avropaya dövlətlərarası neft və qazın ixracı) Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüslərdən biridir. 1999-cu ilin iyul ayında 15 dövlətin (AR də daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi INOGATE-in hüquqi bünövrəsini təşkil edir. INOGATE çərçivəsində həyata keçirilən texniki əməkdaşlığa əlavə olaraq, Aİ zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin enerji təminatını və tranzit potensialını səmərəli istifadəsinə yönəlmiş fəaliyyətində AQS-a daxil olan ölkələr daxil olmaqla bütün maraqlı tərəfdaşların dəstəyi ilə enerji əməkdaşlığı prosesini genişləndirməkdədir. Bu əməkdaşlıq “Bakı Prosesi” təşəbbüsü ilə güclənmişdir. “Bakı Prosesi” (və ya Bakı Təşəbbüsü) 13 noyabr 2004-cü ildə Bakıda Enerji Nazirliklərinin Konfransında Aİ, Qara Dəniz və Xəzər dəniz hövzəsi ölkələri arasında enerji sahəsində

əməkdaşlığın gücləndirmək məqsədi daşıyan siyasi dialoq şəklində başladılmışdır.

Dərin və Hərtərəfli Azad Ticarət Məkanı (DHATM) ətrafında danışıqlar hələ də başlamamışdır. Belə ki, DHATM danışıqlarının başlanması üçün ilkin şərt ÜTT-ə üzv olmaqdır. Lakin, AR ÜTT-ün üzvü deyil.

AQTA çərçivəsində 2007-2013-cü illər üçün nəzərdə tutulmuş Azərbaycan üzrə Strategiya Sənədi Aİ yardım məqsədlərini və siyasət məsuliyyətini əks etdirərək prioritet olan əməkdaşlıq sahələrini dəqiqləşdirir. Bu prioritetlər Azərbaycanın bazar iqtisadiyyatına və demokratik idarəetmənin təşviqinə yardım, Fəaliyyət Planının həyata keçirilməsi və təhlükəsizlik məsələlərini əhatə edir.

*“Azərbaycan Respublikası qanunvericiliyinin Avropa İttifaqı hüququna uyğunlaşdırılması qarşılıqlı əməkdaşlığın zəruri şərti kimi”* adlı ***üçüncü paraqrafda*** qeyd edilir ki, müstəqillik əldə etdikdən sonra qanuvericiliyimizin yenidən formalaşması prosesində beynəlxalq hüququn ümumtanınmış prinsiplərini, normalarını, qabaqcıl dünya dövlətlərinin, əsasən də avropa dövlətlərinin qanunvericilik təcrübəsindən geniş istifadə olunmasına baxmayaraq, günümüzdə qanunvericiliyimiz Aİ-nin AQS çərçivəsində qarşıya qoyulan tələblərinə hələ də tam cavab vermir. Əslində qanunvericiliyin tam unifikasiyası prosesi hələ heç Aİ-nin genişlənməsi ilə əlaqədar yeni üzv olmuş dövlətlərin özündə də tam başa çatmadığını müşahidə edirik.

Uyğunlaşdırma prosesi Aİ hüququna, xüsusən də son 2009-cu ildə qüvvəyə minmiş Lissabon müqaviləsinə uyğun aparılmalıdır. Lissabon müqaviləsi Aİ-nin xarici münasibətlərinin tənzimlənməsinə mühüm təsir göstərmişdir. Aİ-nin xarici siyasətinin mühüm qollarından biri olan AQS də bu təsirdən yan keçməmişdir. AQS Strateji sənədində qeyd olunur ki, “qonşu dövlətlərlə münasibətlər ümumi dəyərlərə hörmət, ilk növbədə qanunun aliliyi, səmərəli idarəçilik, insan hüquqlarına, o cümlədən azlıqların hüquqlarına hörmət, xoş qonşuluq münasibətlərinin inkişafı, stabil inkişaf və bazar iqtisadiyyatının prinsipləri” üzərində qurulacaq. Qeyd olunur ki, “Aİ ilə münasibətlərin sonrakı inkışafı bu dəyərlərə əməl olunma səviyyəsindən asılıdır”. Bu sahədə implementasiyanın əsas prinsipləri 2006-cı il AQS-in Möhkəmlənməsi haqqında bəyanatda elan olunur. Implementasiyanın səmərəlilik səviyyəsi isə milli hüquq qaydasından aslıdır.

Dövlətimiz Aİ ilə bağlanmış beynəlxalq müqavilələrlə üzərinə götürdüyü öhdəlikləri realizə etmək üçün tam, hərtərəfli milli qanunvericilik əsasına malikdir. Bu, Aİ ilə bağlanmış beynəlxalq müqavilələrin məqsədlərinin dərinləşdirilməsi istiqamətində qəbul edilən

AQS-nin, Şərq tərəfdaşlıq Proqramının həyata keçirilməsinə və AR-in Aİ-ə inteqrasiyasına ciddi zəmin verməkdədir. Bu zəmin AR qanunvericiliyinin ayrı-ayrı sahələrində, o cümlədən energetika, investisiya, gömrük, insan hüquqlarının qorunması və s. sahələrdə özünü göstərməkdədir.

**Üçüncü fəsil – "Avropa Qonşuluq Siyasəti çərçivəsində Azərbaycan Respublikas və Avropa İttifaqının əməkdaşlığının əsas hüquqi istiqamətləri"** üç paraqrafdan ibarətdir. ***Birinci paraqraf "Azərbaycan Respublikasının energetika qanunvericiliyi və Avropa İttifaqı energetika hüququnun prinsipləri"*** adlanır. İqtisadi sahədə hüquqi və institusional islahatların həyata keçirilməsi həm AR-in idxalatçı və ixracatçı qismində beynəlxalq bazara çıxmaq, effektiv rəqabət və istehlakçıların hüquqlarının qorunmasına uyğun olaraq birbaşa sərmayələri təşviq etmək imkanlarını artıracaq, həm də ənənəvi olaraq ikitərəfli müqavilə münasibətlərinə əsaslanan ticarət münasibətlərinin çoxtərəfli səviyyədə yüksəlməsinə imkan yaradacaq. Aİ inkişafda olan ölkələr üçün nəzərdə tutulan Preferensiyanın Ümumi Sistemindən Azərbaycanın bəhrələnməsini təmin edir. TƏM-in 55-ci maddəsi bilavasitə energetika məsələlərinə həsr edilib. Bu sahədə AR qanunvericiliyinin Aİ enerji hüququna uyğunlaşdırılması tövsiyə edilir. Saziş çərçivəsində Aİ ilə AR açıq bazar, miqrasiya, investisiyaların təşviqi, yeni maliyyə mənbələrinə çıxışda, ÜTT-ə üzvlük sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verirlər.

TƏM çərçivə xarakteri kəsb etdiyindən energetika sferasında münasibətləri tənzimləyəcək xüsusi prinsiplərin müəyyən edilməsinə çalışılmamışdır. Bunun üçün hər iki tərəfin üzv olduğu beynəlxalq müqavilələrə istinad edilir ki, bunlardan biri də sahəvi məcəlləşdirmə aktı olan Enerji Xartiyası üzrə Müqavilədir (EXM). TƏM-in 55-ci maddəsinin 1-ci hissəsində qeyd edilir ki, bu sahədə əməkdaşlıq Avropada enerji bazarlarının tədrici inteqrasiyasına əsaslanan EXM və Energetikanın səmərəliliyi və onunla əlaqədar ətraf mühit məsələləri Protokolu nəzərdə tutulmaqla bazar iqtisadiyyatı və Avropa Energetika Xartiyasının prinsipləri çərçivəsində həyata keçirilir.

AR arasında imzalanmış Fəaliyyət planına əsasən AR öz daxili enerji fəaliyyətini tədricən Aİ-nin daxili elektrik və qaz bazarlarının prinsiplərinə uyğunlaşdırmaq və enerji sektorunda struktur islahatları aparmaq öhdəliyi götürüb.

İstər EXM-də istərsə də Avropa enerji hüququnun mənbələrini təşkil edən 2003/54/EC, 2003/55/EC nömrəli Direktivlərində və d. aktlarda enerji bazarının idarə edilməsində həlledici prinsiplər kimi bazarın liberallaşdırılması, qısamüddətli kontrakt sisteminin tətbiqi, təchizatın

alternativliyi, enerji resurslarının tranzitinin azadlığı, enerji səmərəliliyinin təmin edilməsi, enerji resurslarının ticarət və ya təchizat kontraktlarında ayrı-seçkiliyə yol verməmək; enerji şəbəkələrinə üçüncü tərəfə sərbəst çıxış hüququnun verilməsi; daxili istehlak bazarında şəffaflığın təmin edilməsi üçün transparentliyin təmini; enerji daşıyıcılarının tarifləri haqqında istehlakçıların məlumat almaq hüququ və s. ifadə edilir.

Daxili bazarın liberallaşdırılması Aİ haqqında Müqavilənin 95-ci maddəsinin tələbindən meydana gəlir. Energetika bazarının liberallaşdırılması bir tərəfdən, vahid bazarın formalaşdırılmasına xidmət edirsə, digər tərəfdən, enerji resurslarının qiymətindəki inhisarı ləğv etməklə qiymətlərin sərbəstləşməsinə gətirib çıxaracaq.

Günümüzdə AR təkcə öz ərazilərində deyil, həmçinin regionda, transsərhəd karbohidrogen ehtiyatlarını beynəlxalq praktikaya uyğun olaraq aşkar etmək, onları digər dövlətlərlə razılaşdırmaq və nəhayət, Avropaya nəql etməkdə aparıcı dövlətdir. Bunun üçün AR-in tranzit məsələlərini tənzim edən beynəlxalq müqavilələrə tərəfdar çıxması xüsusi əhəmiyyət kəsb edir. Belə sazişlərdən biri də AR-in də 1998-ci ildən tərəfdar olduğu və Aİ tərəfindən hazırlanan EXM-dir. İştirakçı dövlətlər həm məcburi hüquqi qüvvə kəsb edən EXM-ə tranzit üzrə Protokol qəbul etməli, həm də tövsiyə xarakterli hökumətlərarası, kompaniyalararası nümunəvi sazişlər hazırlamalıdırlar. İlkin razılığa görə protokolun tənzimetmə obyekti yalnız neft, neft məhsulları, qaz və elektrik enerjisilə məhdudlaşdırılmamalıdır. Məqsəd kimi ayrı-seçkilik olmadan, şəffaf qaydada mövcud və gələcək tranzit sistemlərinə çıxışı təmin etmək, tranzit infrastrukturunun inkişafı və yenidənqurulması, mübahisələrin effektiv və çevik həllinə nail olmaqla enerji resurslarının fasiləsiz və effektli təchizatını təmin etmək qeyd edilir.

Enerji resurslarının istifadəsində ekoloji təhlükəsizliyə yönələn sazişlər enerji effektivliyinə əsaslanan yeni iqtisadi inkişaf modelini nəzərdə tutur. Enerji effektivliyi üçün xarakterik xüsusiyyət daha az məsrəflərlə, ətraf mühitə daha az mənfi təsirlə iqtisadi inkişafı stimullaşdırmaqdır.

Buna baxmayaraq enerji effektivliyi hüquqi əsası yumşaq xarakter kəsb etməkdədir. Xüsusən də, enerji resurslarından istifadə zamanı bir sıra beynəlxalq hüquq normalarının iqtisadi istiqaməti ekoloji imperativlərlə bir araya sığmır. EXM və ona qəbul edilmiş müvafiq Protokolun ekoloji standartlarının beynəlxalq ekologiya hüququnun standartlarından yumşaq ifadə tərzi qeyd edilməlidir. Protokol enerjidən istifadə zamanı dünya iqliminin istiləşməsinə təsir edən tullantıların azaldılması istiqamətində razılığa gələn dövlətlər üçün konkret bir vəzifə müəyyən etmir.

Şübhəsiz ki, bu hal daxili qanunvericiliyə də təsir etməkdədir. İstər

ekoloji təhlükəsizlik, istərsə də energetika sferasında AR-in qanunvericiliyinin analizi belə deməyə əsas verir ki, geniş əhatəli qanunvericilik bazası formalaşdırılsa da bir sıra məsələlər özünün sistemsizliyi ilə diqqəti cəlb edir. Xüsusən də, bir qanunda və ya məcəllədə ifadə edilməsi mümkün olan məsələlər üzrə ayrı-ayrı qanunvericilik aktlarının (məsələn, Energetika haqqında, Enerji resurslarının istifadəsi haqqında, Qaz təchizatı haqqında, Ətraf mühafizəsi haqqında, Ekoloji təhlükəsizlik haqqında və s.) qəbul edilməsi məqbul sayıla bilməz. Digər tərəfdən, qısa müddətli kontrakt sistemi və bu zaman hasilat sənayesinin zəruri müdafiəsi enerji təchizatında keyfiyyətin tənzimlənməsi, istehlakçılar ilə paylayıcı müəssisələrin qarşılıqlı hüquq və vəzifələri və s. məsələlər özünün həllini tapmalıdır.

***"İnvestisiyaların qarşılıqlı müdafiəsi və təşviqi sferasında əməkdaşlığın hüquqi əsasları"*** adlanan ***ikinci pataqrafda*** AR və Aİ arasında investisiya məsələləri üzrə əməkdaşlığın hüquqi əsaslarından bəhs olunur. Hər bir dövlətin iqtisadi inkişafına təkan verən mühüm amillərdən başlıcası onun iqtisadiyyatına qoyulan investisiyanın həcminin böyük olmasıdır. Xarici kapital qoyuluşunun mühüm şərtləri kimi siyasi və hüquqi sabitlik ön planda durur. AQS çərçivəsində Aİ və AR əməkdaşlığının prioritet məsələlərindən biri də investisiyaların təşviqi və müdafiəsidir. Investisiyaların cəlbində və müdafiəsində maraqlı olan AR və Aİ AR qanunvericiliyinin Aİ hüququna uyğunlaşdırılmasına qarşılıqlı dəstək verirlər. AR özünün qanunvericiliyini unifikasiya və hormonizasiya yolu ilə formalaşdırır. Aİ ilə AR arasında bağlanmış TƏM-in bir sıra müddəaları bilavasitə investisiya fəaliyyəti sferasında əməkdaşlığa həsr edilib. Əməkdaşlığın istiqaməti kimi birtərəfli məcburiyyət tədbirlərinə yol verməmək barədə öhdəliyin qəbul edilməsi üzrə qanunvericilik normasının təsbit edilməsi xarici investorlar üçün xüsusi əhəmiyyət kəsb edir. Sazişin bilavasitə 48-ci maddəsi kapital qoyuluşunun təşviqi və müdafiəsini təsbit edir. Həmin maddənin 1-ci hissəsində qeyd edilir ki, birliyin və üzv dövlətlərin müvafiq ixtiyar və səlahiyyətlərini nəzərə alaraq əməkdaşlıq ilk növbədə investisiyaların müdafiəsi, kapital köçürmələri və investisiya imkanları barədə məlumat mübadiləsi vasitəsilə həm daxili, həm də xarici fərdi investisiyalar üçün əlverişli şərait yaradılmasını qarşıya məqsəd kimi qoyur.

Beynəlxalq müqavilələrdə hüquq tətbiqetmə prosesində anlaşılmazlıq yaranmasın deyə, beynəlxalq investisiya münasibətləri üçün əhəmiyyət kəsb edən (investisiya, kompaniya, investor, mənfəət və gəlir və s.) anlayışların definisiyası verilir. Bağlanmış beynəlxalq sazişlər bir qayda olaraq Aİ-nin daxili hüququnun ciddi təsirinə məruz qalır. TƏM-in 43.2-ci maddəsində də nəzərdə tutulduğu kimi Aİ-nin də təsis müqavilələri

əmtəələrin sərbəst rejimi üzrə Müqavilə qanunvericiliyin uyğunlaşdırılması üçün əsas kimi çıxış edir. Xüsusən də, assosiativ uzvlük mərhələsində qeyd edilən uyğunlaşdırma daha da aktuallaşacaq.

AR-in investisiya qanunvericiliyinin əsas problemlərindən biri də investisiya anlayışının məzmunca dar aspekt kəsb etməsidir. İnvestisiya ingilis diliində «investment» – kapital qoyuluşu mənasını ifadə edir. Xarici investisiyaların qorunması haqqında 1992-ci il Qanunun 2-ci maddəsində qeyd edilir ki, xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır. Qanuna görə investisiya əmlak kimi deyil hüquq kimi ifadə edilir. Müasir beynəlxalq hüquqa görə isə investisiya əmlak kateqoriyası xüsusiyyəti daşıyır. Aİ-nin də iştirakı ilə hazırlanan müqavilələrdə investisiyanın daha geniş anlayışından çıxış edilir. Məsələn, 1995-ci il İnvestisiyalar üzrə çoxtərəfli Sazişin layihəsi üçün mütərəqqi məsələlərdən biri investisiya anlayışının geniş aspektdə müəyyən edilməsidir. İnvestisiya anlayışı özündə müəssisələrdə iştirakı, daşınmaz əmlak, portfel investisiyaları, qeyri-maddi əmlak və digər maliyyə vəsaitlərini də birləşdirir.

AR-in qanunvericiliyinin dəyişiklik edilməklə Aİ hüququna uyğunlaşdırılması tələb edilən sahələrdən biri də dövlət satınalmalarıdır. Əsaslı tikintidə, dağ-mədən və s. sahəsində investisiya cəlb etməklə işlərin yerinə yetirilməsi üçün dövlət sifarişinin yerləşdirilməsi müsabiqə əsasında həyata keçirilməlidir. Buna ÜTT hüququ yol verdiyi kimi, eynilə Yerin təki haqqında 1997-ci il Qanunu və Dövlət satınalmaları haqqında AR-in 2003-cü il Qanunu nəzərdə tutur. Belə bir qayda, həm də QATT üzrə öhdəlik olaraq təzahür etməkdədir. Lakin müəyyən hallarda, xüsusilə də milli iqtisadi təhlükəsizlik tələb etdikdə sifarişlər tendersiz də yerləşdirilə bilər.

Bazar iqtisadiyyatı şəraitində xarici ticarət lisenziyalarından istifadə olunması dövlətə idxal və ixracın miqdarını məhdudlaşdıraraq, bir sıra hallarda isə ayrı-ayrı idxal-ixrac əməliyyatlarını tamamilə qadağan edərək ölkənin xarici ticarətinə birbaşa müdaxiləni həyata keçirməyə imkan verir. Yeni müstəqil və inkişaf etmiş gənc ölkələrdə milli iqtisadiyyatın təşəkkül tapması maraqları naminə belə əməliyyatlardan maksimal istifadə edilməsi məqsədilə onların tənzimlənməsində lisenziya mühüm rol oynayır. O yaranmaqda olan sənayenin xarici rəqabətdən qorunması formalarından biri, həmçinin xarici valyutadan daha səmərəli istifadə edilməsi vasitəsidir.

***"Gömrük münasibətlərinin tənzimlənməsində Avropa İttifaqı standartları və Azərbaycan Respublikası qanunvericiliyi"*** adlanan ***üçüncü paraqrafda*** Aİ-nin AQS üzrə tərəfdaş dövlətlərdən biri olan Azərbaycan Respiblikasının gömrük qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması mühüm prioritet məsələlər sırasında olması vurğulanır. Bu AR-in Fəaliyyət Planında da əks olunur. İqtisadi inteqrasiyanın inkşafına başlıca təkan verən gömrük-tarif qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması AR-in iqtisadi inkşafına verilən mühüm dəstək hesab olunmalıdır. Gömrük prosedurlarının Aİ standartlarına yaxınlaşdırılmasında beynəlxalq hökumətlərarası təşkilat kimi ÜTT də mühüm rol oynayır. Bu beynəlxalq təşkilatın əsas fəaliyyət istiqamətlərini üzv-dövlətlərin daxili qanunvericiliyinin yaxınlaşdırılmasını təmin etmək təşkil edir. ÜTT-ün üzvü olan ölkələr müvafiq olaraq xarici iqtisadi fəaliyyəti tənzimləyən qanunvericiliyi QATT (The General Agreement on Tariffs and Trade – Tarif və Ticarət haqqında Baş Saziş) və digər sazişlər sisteminə uyğunlaşdırmalıdırlar. Şəxslərin, yüklərin, nəqliyyat vasitələrinin gömrük sərhədindən sadələşdirilmiş və sürətli keçidi üçün gömrük prosedurları sferasında AR-in Aİ ilə gömrük sistemlərinin unifikasiyası əməkdaşlığın əsas problemlərindəndir. Bu məsələnin həlli səviyyəsi nə qədər yüksək olarsa, gömrük əməkdaşlığı da bir o qədər səmərəli olacaq.

AR-in gömrük qanunvericiliyinin inikşafında və təkmilləşdirilməsində Aİ gömrük hüququ çərçivəsində hazırlanmış normalar əhəmiyyətli rol oynamaqdadır. Aİ Gömrük İttifaqının formalaşmasında isə başlıca rolu Ümumi Gömrük Tarifi (ÜGT) oynamışdır. Aİ-nin ÜGT mexanizmi qlobal səviyyədə digər dövlətlərlə gömrük münasibətlərində bilavasitə QATT vasitəsilə tətbiq olunmaqdadır. Buna görə də ÜTT-ə üzvlüyə qəbul zamanı Aİ ilə gömrük münasibətlərində danışıqlarda QATT-a uyğunlaşdırma mühüm əhəmiyyət kəsb edir. QATT-ın bərqərar olduğu bütün dövr (raundlar) ərzində tariflərin aşağı salınması siyasəti izlənmişdir. AR yeni gömrük qanunvericilik aktının bütün müsbət məqamları ilə yanaşı onun gömrük münasibətləri sferasında beynəlxalq müqavilələrə münasibəti qeyri-müəyyənlik yaratmaqdadır. Gömrük münasibətləri beynəlxalq xarakter kəsb etdiyi üçün tənzimetmə mənbəsi kimi beynəlxalq müqavilə normalarının normativ sistemdəki yeri konkret ifadə tərzinə malik olmalıdır. Xüsusən də, daxili qanunvericilik aktı ilə ziddiyyət halında beynəlxalq müqavilə normalarının prioriteti, münasibətlərə tətbiq edilmə səviyyəsi, mənbə kimi tanınması Gömrük Məcəlləsinin ayrıca bir maddəsi ilə ifadə edilməlidir.

Dissertasiya işinin **nəticə hissəsində** aparılmış tədqiqatın əsas yekunları, əldə edilmiş mühüm təkliflər qeyd edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**


1. Ümumi xarici siyasət və təhlükəsizlik siyasəti sahəsində Avropa İttifaqının əməkdaşlıq prinsipləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2011, №1(25), s.37-41;
2. Azərbaycan Respublikasının energetika qanunvericiliyi və Avropa İttifaqının energetika hüququnun prinsipləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2011, №4(28), s.20-30;
3. Avropa Qonşuluq Siyasətinin təsis edilməsi zərurəti və onun mahiyyəti. Ümumilli liderimiz HEYDƏR ƏLİYEVİN anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda 12-ci respublika elmi-praktik konfransının materialları, (10-11 may), Bakı-2012, s.68-73;
4. Сотрудничество в сфере взаимной защиты и поощрения инвестиций между Европейским Союзом и Азербайджаном. Право І суспільство, Дніпропетровськ, Україна, 2012, №3, ст.99-105;
5. Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında beynəlxalq-hüquqi əməkdaşlıq və Avropa Qonşuluq Siyasəti. Nəqliyyat hüququ. 2012, №4, s.129-140;
6. Avropa Qonşuluq Siyasətinin hüquqi və institusional əsasları. Dirçəliş – XXI əsr. 171-172/2012. s. 207-218;
7. Gümrük rejiminde Avrupa Birliği standartları ve Azerbaycan Cumhuriyeti hukuku. Tanık Akademik, 1. Sayı 2013, s.58-64 (Türkiyə Respublikası);
8. Avropa Qonşuluq Siyasəti və Azərbaycan Respublikasında insan hüquqları. 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş Beynəlxalq elmi-praktik konfrans (13-14 dekabr 2012-ci il). Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri. I cild, Bakı-2013. s.314;
9. Avropa Qonşuluq Siyasətinin Şərq Tərəfdaşlığında yeni ikitərəfli öhdəlikləri. Hüquqi dövlət və qanun, 2009, №12, s.44-47;
10. Avropa Qonşuluq Siyasətinin Şərq Tərəfdaşlığında mobilizasiya və təhlükəsizlik məsələlərinin hüquqi tənzimlənməsi. Hüquqi dövlət və qanun, 2010, №6, s.30-33;
11. Avropa Qonşuluq Siyasətinin təsis edilməsi zərurəti. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının Materialları. II cild. Bakı, 2013. s. 104-105.

## SUMMARY

The dissertation work on "European Neighbourhood policy and the Republic of Azerbaijan – international legal aspects of economic cooperation" of Eyvazova Samira is dedicated to one of the main and important issues. This dissertation is the first research work done in Azerbaijan concerning collaboration of Azerbaijan and EU in European Neighbourhood policy framework.

The main goal of this work is to analyse security standards of EU, implementation of those standards and research of international law approaches in implementation of the abovementioned standards by Azerbaijan.

The dissertation work is comprised of an introduction,3 chapters, conclusion and literature.

The introduction justifies the relevance of the research work, objectives, main goals, subject, novelty of the dissertation work, also theoretical basis and methodology and practical importance of the research, and its approbation are noted as important.

The first chapter of the research work is titled "Emergence of European Neighbourhood Policy and importance for horizontal integration", and is comprised of 3 parts. This chapter reviews such aspects as importance for emergence of ENP and its institutional and judicial basises, including judicial aspects of Eastern Partnership.

The second chapter of the research work is titled "International legal basis for cooperation between Azerbaijan and EU" and is comprised of 3 parts . Legal issues such as international treaty basis of cooperation between Azerbaijan and EU, quasi-legal basis of EU and Azerbaijan within the framework of ENP, bringing Azerbaijani legislation in line with European standards as an important part for partnership are analysed in this chapter.

The third chapter titled "Legal approaches of participation of Azerbaijan in ENP" is comprised of 3 parts. Azerbaijani legislation in the energy sector, legal principles of EU energy law, mutual protection of investments, implementation of EU standards in customs and cooperation in the abovementioned sectors has been investigated.

The conclusion of the reserach work is dedicated to results of research and vital proposals has been made.

# РЕЗЮМЕ

Представленная Самирой Али кызы Эйвазовой диссертационная работа на тему «Политика добрососедства Европейского Союза и АзербайджанскойфРеспублики – международно-правовые проблемы экономического сотрудничества» посвящена одной из самых важных и актуальных тем для сегодняшнего дня. В целом, диссертационная работа представляет собой первую научно-исследовательскую работу в Азербайджанской Республике (АР), в котором рассматриваются вопросы международно-правового регулирования отношений между АР и Европейским Союзом (ЕС) в рамках Европейской Политики Добрососедства (ЕПД). Основной целью настоящего исследования является комплексный анализ стандартов безопасности ЕС, изучение международно-правовых мер в направлении имплементации соответствующих стандартов АР и их усовершенствование. Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы диссертационной работы, определяются степень разработки исследования, ее предмет и объект, цель и задачи, научная новизна, методологические и теоретические основы диссертации, нормативная база работы, положения, выносимые на защиту, теоретическое и практическое значение диссертационного исследования, представляется информация об апробации результатов исследования и структуре работы.

Первая глава диссертации под названием «Возникновение ЕПД и ее и значение для горизонтальной интеграции» состоит из трех параграфов. В этой главе рассматриваются такие вопросы, как необходимость принятия ЕПД, материальные и институциональные основы ЕПД, в том числе правовые аспекты программы Восточного Партнерства.

Вторая глава диссертационной работы под названием «Международно-правовая основа сотрудничества АР с ЕС» также состоит из трех параграфов. В этой главе исследуются основы международно-договорного сотрудничества ЕС и АР, включая и исследование основ квазиправового сотрудничества между ЕС и АР в рамках ЕПД, а также рассматриваются вопросы, касающиеся необходимых условий взаимного сотрудничества при приведении азербайджанского законодательства в соответствие с правом ЕС.

Третья глава диссертационной работы под названием «Правовые направления участия АР в приоритетах ЕПД также, в свою очередь, состоит из трех глав. В этой главе исследуются такие вопросы, как принципы энергетического права АР и законодательство АР в области энергетики, сотрудничество в сфере взаимной защиты и поощрения инвестиций, стандарты ЕС в регулировании таможенных отношений и законодательство АР.

В заключении диссертации подводятся итоги исследования и приводятся конкретные предложения и рекомендации, полученные в результате проведенной работы.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЭЙВАЗОВА САМИРА АЛИ кызы**

# НОВАЯ ПОЛИТИКА ДОБРОСОСЕДСТВА ЕВРОПЕЙСКОГО СОЮЗА И АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА – МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА

**Специальность: 5603.01 – Международное право; права человека**

**АВТОРЕФЕРАТ**

диссертации, представленной на соискание

ученой степени доктора философии по праву

**БАКУ – 2013**

Çapa imzalanmışdır: 20.09.2013
Kağız formatı: 60x84 1/16
Həcmi: 1.5 f.ç.v. Tirajı 100